***Hidayət***
***Mən bu qışın...***

Mən bu qışın qapısını bağlayıb,
Yaz yelitək, yay günütək çağlayıb,
Boranların sinəsini dağlayıb,
Yazacağam... Misralarım təzə - tər...

Dağ başında dalıb kövrək xəyala,
Zirvələrdən əl edirəm hər yala,
Ayaqlarım -yol maşını!..
Şimala
Yön alıram, qarlı, buzlu bir səhər.

Bu qış başqa qış olacaq, əzizim,
Donmayacaq çayım, çeşməm, dənizim!
İzsiz göyə iz salacaq hər izim,
Öz qınında çatlayacaq çox qəhər.

Məlikməmməd oyanacaq o başdan,
Dəli Domrul sağ çıxacaq vuruşdan,
Simurq quşum, bu qışdakı uçuşdan
Başlayacaq Aya, Günə min səfər...

Bu qış gərək dönüb başqa qış ola,
Bu qış gərək öz buzundan od ala,
Bədxahlar da dala şirin xəyala,
Yer üzündə üşüməyə bir nəfər.

Ay Hidayət, bahar nədir, qış nədir?
Ömür-gündür... əldən gedir, hey gedir,
Qələm sussa, qəlbi, ruhu göynədər,
Qoy söyləsin xeyrə xeyir, şərə şər...

***Hidayət. Mən bu qışın... // Yeni Azərbaycan. – 2013. 9 may. - № 82. – S. 10. -***
***Bu şeir Heydər Əlirza oğlunun Sov.İKP MK Siyasi Bürosuna üzv seçilməsi münasibəti ilə 1983-cü ilin ilk günlərində yazılıb.***